0066900033

Reçu CLT / CIH / ITH
Le 19 FEV. 2014
N° 0117

Mən Balaşova Nəzakət Namiq qızı kəlağayı sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Nümunəvi Siyahısına daxil olmasına razılıq bildirirəm. İnanıram ki, bu addımla bu qədim sənət növünə ictimai maraq bundan sonra daha da artacaq, onun gənc nəsil sənətkarla ötürülməsinə təkan veriləcəkdir.

İmza: [signature] /Balaşova Nəzakət Namiq qızı/
/Boyaqçı/

Şəki şəhəri

24. dekabr 2013-cü il

I, the undersigned BALASHOVA Nezaket Namiq qyzy , hereby express my consent to the inscription of the art of *kelagayi* into the UNESCO Representative List of Intangible Cultural Heritage. I am confident that this step will help to further increase the public interest in this type of ancient craftsmanship and enhance its transmission to future generations of craftspeople.

Signature: (BALASHOVA Nezaket Namig gyzy)
(dyer)

Sheki city

December 24, 2013

UNESCO-nun Qeyri-maddi Mədə
irs üzrə Nümunəsi siyahısına daxil
olmaq üçün kəlağayı sənətinin təqdim
olunması məni çox razı saldı. Azər-
baycanda yaşayan bütün xalqlar,
müxtəlif yaş nəsillərinin nümayəndə
ləri kəlağayını sevinclə qəbul edir.
Bununla belə bu sənətin qorunmaya
zə statusunun qaldırılmasına
UNESCO-nun xeyirxah müdaxiləsin-
dən sonra bir çox QMİ nümunələrinin
yenidən canlanması müşahidə olunub.
Buna görə kəlağayı sənətinin həmin
siyahıya daxil olunmasının təsdiqini
səbirsizliklə gözləyəcəyəm.

İmza: [signature]

Bağbanlı Ülkər Nərman q.
(gül vuran)

Şəki şəhəri
24 yanvar 2014

I am very delighted that the art of *kelagayi* is nominated for inscription into the UNESCO Representative List of Intangible Cultural Heritage. All the people and representatives of various generations in Azerbaijan wholeheartedly accept *kelegayi*. Therefore, there is a need to preserve and increase the status of this craftsmanship. To the best of my knowledge, we believe that there will be a further wave of promotion of the ICH masterpieces following the generous intervention by UNESCO. Therefore, I am looking forward to seeing the art of *kelegayi* being inscribed into the said List.

Singature: BAGHBANLY Ulker Nariman gyzy
(woodblock/stamp carver)

Sheki city
January 24, 2014

Aidiyyəti üzrə.

Razılıq məktubu.

Uzun illər boyu kəlağayı sənətini imkanları daxilində yaşadan bir insan kimi bu el, xalq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə nümunəvi siyahısına daxil olması məsələsinin qaldırılmasında məmnunluğumu bildirirəm. Xalq arasında yaşayan kəlağayı sənətinin və bu işlə məşğul olan sənətkarların bu gün xüsusi qayğı və diqqətə ehtiyacları böyükdür. Buna görə də UNESCO-nun himayəsi bizim üçün çox qiymətli və vacibdir.

Basqal qəsəbəsi
15 dekabr 2013-cü il.
Ağayev İlham Paşa oğlu. A.İlham
Boyaqçı.

**To whom it may concern**

**Letter of Consent**

I have, for many years, as an individual, been preserving, within my competence, the art of *kelagayi*. I therefore express my gratitude for being permitted to raise the subject of the inscription of this folk art into the UNESCO Representative List of Intangible Cultural Heritage. This craftsmanship, which has been preserved by ordinary people, needs more action and attention: therefore, it is very valuable for us to have it placed under the UNESCO's umbrella.

Basgal township
December 15, 2013

AGAYEV Ilham Pasha oglu
(dyer)

# Aidiyyəti üzrə
# Razılıq Məktubu

Kələğayı sənəti, bir tərəfdən, tarixən sırf Az-na xasdır, digər tərəfdən o qəlbləri isidir, xoş münasibət yaradır, azərbaycanlılara bütün dünyada dost qazandırır.

Unesconun Qeyri-maddi Mədəni irs üzrə olacağı halda kələğayının beynəlxalq səviyyədə tanınması və xalq yaradıcılığı incisinin davamlı inkişafı üçün şu yaxşı zəmindir. Buna görə də mən belə müraciətlə tam razıyam.

Yunis Ağasmid oğlu
Balayev.

Tərrah - Toxucu

Başqal qəsəbəsi

yanvar 12-01-2014

**To whom it may concern**

**Letter of Consent**

On the one hand, the art of *kelagayi* belongs specifically and historically to Azerbaijan: on the other hand, it cheers up our hearts up, leaves friendly impressions and provides friendships for Azerbaijanis worldwide. The recognition of *kelagayi making and wearing* at the international level, by inscribing it into the UNESCO Representative List of Intangible Cultural Heritage, is a good foundation for further development of this pearl of folk craftsmanship. Therefore, I express my full consent for this initiative.

Yunis Agasamid oglu BALAYEV
(kelaghayi weaver)

Basgal township
January 12, 2014

Aidiyyəti üzrə

Razılıq Məktubu

UNESCO-nun Qeyri maddi mədəni irs üzrə Nümunəvi Siyahısında Azərbaycanın bir sıra dəyərli mədəni təzahürü artıq öz əksini tapmışdır bunun gözəl bəhrəsini hamımız şahidiyik. Sevinirəm ki kəlağayının da təqdim olmaq növbəsi indi gəlib çatdı. Ümid edirəm ki mötəbər beynəlxalq səviyyədə kəlağayının dəyərləndirilməsi bu əvəzolunmaz el sənətinə ümumi diqqəti artıracaq.

Mirzəlov Əlikram Söhbət oğlu

tavakeş

Basqal qəsəbəsi

26 dekabr 2013

**To whom it may concern**

**Letter of Consent**

Several valuable elements of the Azerbaijan culture are already reflected in the UNESCO Representative List of Intangible Cultural Heritage. We have all noted its outstanding results. I am delighted to say that I consider it is now the time for *kelagayi art* to be nominated for the List. I am hopeful that this recognition of *kelaghayi art,* at such a prestigious international level, will increase public attention to this valuable traditional art.

MURSALOV Alikram Sohbet oglu
Woodblock/stamp printer

Basgal township

December 26, 2013

Kəlağayı istehsalı ilə bağlı sənətkarlıq əsrlər boyu inkişaf etmiş, zəmanəmizə gəlib çatmışdır, lakin bundan sonra onun qorunması və təbliği üçün xüsusi səylər göstərilməlidir. Bu sarıdan bu ənənəvi el sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Nümunəvi siyahısına daxil olunmasını dəstəkləyirəm.

İmza: [signature]

Hüseynova Gülnarə Ziyəddin q.
(gülvuran)

Şəki şəhəri

24 dekabr 2013-cü il.

The art of *kelagayi making and wearing* has been inherited and developed throughout the centuries. Today, special efforts for its preservation and promotion must be continued. In this regard, I extend my support for the inscription of this traditional folk art into the UNESCO Representative List of Intangible Cultural Heritage.

Signature: HUSEYNOVA Gulnara Ziyaddin gyzy
(woodblock/stamp printer)

Sheki city

December 24, 2013

AZƏRBAYCAN RESPUBLİKASI
“ŞƏKİ” ƏLİLLƏRƏ QAYĞI
ICTİMAİ BİRLİYİ

AZERBAIJAN REPUBLIC
“SHEKI” DISABLED PEOPLE
CARE ASSOCIATION

№ 01 “24” yanvar 2014

“Şəki” Əlillərə Qayğı İctimai Birliyi 2002-ci ildə təsis olunmuşdur. Yarandığı dövrdən bəri Şəkidə el sənətinin inkişafı sahəsəində bir çox uğurlu təşəbbüsləri ilə tanınan təşkilatımız öz sıralarında bir çox kəlağayı ustasını da birləşdirir.

Kəlağayı sənətinin davam etdirilməsi onun istehsalına xas olan ənənəvi üsulların qorunub saxlanılması deyil, bu həm də əhali tərəfindən qədim naxışların xüsusi məna və zövq daşıyıcıları kimi qavranılması, milli mərasimlərdə istifadə olunması və Azərbaycanın bütün dünya ilə mədəni dialoqunda gözəl bir töhvə kimi cəlb olunması deməkdir. Təşkilatımız xüsusilə də kəlağayı sənəti sirrlərinin gənc nəsillərə ötürülməsini vacib sayır.

UNESCO tərəfindən Qeyri-maddi Mədəni İrs üzrə Nümunəvi Siyahıya qeydə alınması üçün ərizə faylını hazırlanmasında bizim QHT yaxından iştirak etmişdir. Həmin təşəbbüsü var qüvvəmizlə dəstəkləyir, kəlağayı sənətinin UNESCO müstəvisində dəstəklənməsini arzulayırıq.

“Şəki” Əlillərə Qayğı İctimai Birliyinin
həmtəsisçisi: Alxasova Güləndam

Şəki şəhəri, 2014-cü il, 24 yanvar

*Unofficial translation*

**The Republic of Azerbaijan**
**Sheki Disabled People Care Association**

N 01 24 January 2014

The *Sheki* Disabled People Care Association was established in 2002. Since its creation, our organization became very famous in *Sheki* thanks its successful initiatives in the field of development of folk art by uniting many *kelagayi* masters.

For us, development of *Kelaghayi* art is not only preservation of traditional methods of its making, but also promotion of specific and symbolic meanings of ancient ornaments, as well as wearing it at national festivities and contribution to the cultural dialogue between Azerbaijan and world. Our organization attaches significant importance to transmission of Kelaghayi art techniques to younger generations.

Our NGO has closely cooperated with all relevant stakeholders to propose the art for inscription into the UNESCO Representative List of Intangible Heritage. We extend our overwhelming support to this initiative and wish to see UNESCO to assist us in the art of *kelagayi.*

/signed/

Gulandam Alkhasova
Co-founder of the Sheki Disabled People Care Association

City of Sheki

**Azərbaycan Qadın və İnkişaf Mərkəzi**

**Azerbaijan Women & Development Centre**

AZ 1001,Bakı, S. Rüstəmov küç., 3/6
Tel: (994-12) 492 99 02
Mob: (994-50) 589 99 81
E-mail: pervin_mammadova@mail.ru

*In Special Consultative Status with United Nations Economic and Social Council and UN Department on Public Information*

3/6, S.Rustamov street., AZ 1001, Baku
Tel: (994-12) 492 99 02
Mob: (994-50) 589 99 81
E-mail: pervin_mammadova@mail.ru

No 6 "10" yanvar 2014

Aidiyyəti üzrə

## RAZILIQ MƏKTUBU

Kəlağayı Azərbaycan qadınlarının milli geyiminin atributu, ayrılmaz hissəsidir. O, ipəkdən hazırlanan basmanaxış üsulu ilə bəzədilən baş örtüyüdür. Bu örtük el arası gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi hesab olunur. Bununla yanaşı, kəlağayı özündə Odlar Yurdunun qədim tarixini, mədəniyyətini, adət-ənənələrini də yaşadır. Ona Azərbaycan folklorunda, poeziyasında, habelə təsviri və dekorativ sənətində də tez-tez rast gəlinir. Müxtəlif cür qadın baş örtüklərindən (məs.: örpək, şal, çarqat, çadra, hicab və s.) fərqli olaraq, kəlağayı müxtəlif yaş dönəmlərində, müxtəlif tipli mərasimlərdə rənginə, formasına, naxışların quruluşuna və bir sıra digər xüsusiyyətlərinə görə istifadə edilir.

Qadın üzüyündən keçə bilən incə, yüngül, kəlağayının hazırlanması asan başa gəlmir. Yalnız boyanıb, naxışlanması 2-5 gün tələb edən bu proses adətən kişilərin əməyi nəticəsində gerçəkləşir. Çünki qaynar su ilə, xüsusi məhlullarla, qəliblərlə işləmək xeyli güc-qüvvə tələb edir. Bunu isə kişilər daha yaxşı bacarır. Eyni zamanda, kəlağayı ipəyinin hazırlanmasında bütövlükdə ev təsərrüfatı, o cümlədən qadınlar iştirak edir və bununla belə bu məşğulluqla bağlı gender münasibətlərin tənzimlənməsi üçün yaxşı şərait yaradır.

Kəlağayı Azərbaycanlıların bütün ömrünü müşayiət edən elementlər sırasındadır. Kəlağayını qurulacaq ailənin təməl daşı hesab etmək olar. Kəlağayısını oğlana bağışlayan qız eşqinə ömürlük sadiq qalacağına and içərmiş, toy mərasimində isə bəy-oğlanın çiyninə kəlağayılar atılar. Şirniyyat və çörək məmulatlarında, türbə və qəbirüstü abidələrdə sırf kəlağayıya məxsus elementləri və kompozisiyaları görmək mümkündür. İnsan dünyasını dəyişəndə onun üstünü qara kəlağayı ilə örtərlər. Bu baş örtüyü həm də sülhsevər missiyanı özündə yaşadır. Belə ki, müxtəlif səbəblərdən yaranmış münaqişə zamanı qadın başındakı kəlağayını yerə atarsa dava edən kişilər dərhal savaşı dayandırarlar.

Kəlağayı ornamentləri milli xüsusiyyətlər baxımından orijinal və spesifik olmasına baxmayaraq, bir çox dünya xalqlarının incəsənətində işlənən forma və ideyalarla ümumbəşəri vəhdət təşkil edir. Yəqin ki, buna görə kəlağayıları müxtəlif mədəni ənənələrin təmsilçiləri bəyənir və müasir geyimdə işlətməsindən zövq alır. Kəlağayıda əks olunan naxışlar özündə ülvi mənaları ehtiva edərək müxtəlif qruplar, cəmiyyətlər arasında əlaqələrin inkişafına yardımçı ola bilər. Buna görə biz, Azərbaycan Respublikası "Qadın və İnkişaf" Mərkəzi qeyri-hökümət təşkilatının nümayəndələri, hesab edirik ki, kəlağayı sənətinin UNESCO-nun Qeyri-maddi Mənəvi İrs üzrə nümunəvi siyahısına daxil edilməsi bu spesifik milli sənətin yaşadılmasına əməlli kömək olacaq.

**Professor Pərvin Məmmədova**
**Azərbaycan Respublikasının**
**"Qadın və İnkişaf Mərkəzi"nin sədri**

AZƏRBAYCAN RESPUBLİKASI "QADIN VƏ İNKİŞAF" MƏRKƏZİ • Azerbaijan Republic "WOMEN AND DEVELOPMENT" Centre

**Azerbaijan**
**Women & Development Centre**

3/6, S.Rustamov Street, AZ1001, Baku
Phone: 994 12 492 99 02
Mobile: 994 50 589 99 81
Email: pervin_mammadova@mail.ru

N 6 10 January 2014

**TO WHOM IT MAY CONCERN**
**LETTER OF CONSENT**

The *kelagayi art* is an integral part and a national attribute of daily life and costumes of Azerbaijani women. This is a silk made headdress decorated using various ornament techniques. This headgear is considered by women as a symbol of beauty, chastity, dignity, esteem and fidelity. At the same time, the *kelegayi art* reflects the ancient history, the culture and the traditions of the Land of Fire. Often times, we can observe that it is referred in Azerbaijani folklore, poetry as well as painting and other fields of art. Differently from other types of female headdress (such as *orpek* - 'headgear', *shal* - 'shawl', *chargat, chadra* – 'yashmak', *hijab* – 'a religious headdress'), the *kelagayi* is worn by women of different ages and at various ceremonies depending on its color, form, structure of ornaments and several other details.

It is very hard to manufacture the feather light, subtle *kelagayi* that passes easily through a finger ring. Its production has many stages. The dying and decorating of the *kelagayi* requires 2 – 5 days, and the dying process is mainly carried out by men because working with boiled water, special solutions and templates require a lot of physical strength. Therefore, this can be better done by male craftsmen. At the same time, the entire household and women are mobilized to make silk fabrics to be used for the *kelagayi.* The art helps regulating the roles of the both genders.

The *kelagayi art* is one of elements that accompany all Azerbaijani women throughout their lives. The *kelagayi* can be considered as a corner stone of a future family. In the past, a young girl gifting her *kelagayi* to a boy would swear by it that she will love him and remain with him forever. During the wedding ceremony, women put *kelegayis* on the shoulders of a groom. It is also possible to see ornaments and decorative figures of the *kelagayi* used to decorate sweets and bread or to be carved on turbehs and tombstones. There is also a tradition to cover a deceased person by a black *kelagayi.* This headdress plays also a role of peaceful mediator. For instance, men would immediately stop quarreling when women throw down their *kelagayis* in front of them during disputes.

Despite that the *kelagayi* ornaments are unique and specific by its national nature, they form a perfect harmony with the ideas of women. This may explain the interest of many women to the *kelagayi* wearing and enjoy using it together with modern clothes. Ornaments made on the *kelagayi* reflect high ideals and can help various communities and societies to develop a mutual relationship.

The current fashion is an ever changing notion. At the same time, the *kelagayi* by its size and ornaments remains always a part of cultural roots. This art needs to be safeguarded using all possibilities. Therefore, it would be very helpful to see the *kelagayi art* inscribed into the UNESCO Representative List of Intangible Cultural Heritage.

**Professor Pervin Mammadova, Chairwoman**
**Azerbaijan Women & Development Centre**

0066900009

Reçu CLT / CIH / ITH

Le 28 MARS 2011

N° 4626

Basqal qəsəbə bələdiyyəsinin 16 mart 2011-ci il tarixində keçirilmiş iclasının 4 saylı protokolundan

# ÇIXARIŞ

İştirak edir: 9 nəfər bələdiyyə üzvü.

İclasın sədri: Rəşad Nağıyev
İclasın katibi: Yeganə Ağayeva

***Gündəlikdə duran məsələ***

1. Azərbaycan mədəniyyətinin tarixi sənət növlərindən biri olan " Azərbaycan kəlağayısı sənəti və simvolikası" nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunması barədə.

Bələdiyyə şurası məlumat və çıxışları dinləyərək qərara alır.

***Qərar:***

Basqal qəsəbə bələdiyyəsi Azərbaycan mədəniyyətinin tarixi sənət növlərindən biri olan " Azərbaycan kəlağayısı sənəti və simvolikası" nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunmasını dəstəkləyir və bu təşəbbüsün həyata keşirilməsinə razılığımızı bildiririk.

Bələdiyyə sədri Nağıyev Rəşad

Translation

# EXTRACT

from the Protocol N 4 of the meeting of Basgal settlement municipality held on 16 March 2011

Participants: 9 members of municipality

Chair of the meeting: Rashad Naghiyev
Secretary of the meeting: Yegana Aghayeva

**Agenda**

1. The proposal on the inclusion of "Art and symbolism of Azerbaijani kelaghayi" which is a part of Azerbaijani culture into UNESCO Representative List of Intangible Cultural Heritage.

The Municipality after hearing the information and speeches decides that:

**Decision:**

Municipality of Basgal settlement supports the proposal concerning the inclusion of the element of Azerbaijani culture "Art and symbolism of Azerbaijani kelaghayi" into the UNESCO Representative List of Intangible Cultural Heritage and gives its permission on the implementation of this initiative.

Chair of Municipality Naghiyev Rashad

Şəki Bələdiyyəsinin 14 Mart 2011-ci il tarixdə keçirilmiş
04 saylı iclas protokolundan

Çıxarış

İştirak etməlidir: 17 nəfər
İştirak edir: 11 nəfər

Bələdiyyə üzvlərindən 6 nəfəri üzürlü səbəbdən iclasda iştirak etmir.

İclasın sədri: Fikrət Neymət oğlu Cəfərov

İclasın katibi: Səyalı Abdulla qızı Abdullayeva

İclasın gündəliyi:

1. Azərbaycan Mədəniyyətinin tarixi sənət növlərindən biri olan «Azərbaycan kəlağayısı və simvolikası»nın YUNESKO-nun Qeyri-maddi Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunması barədə

Gündəlik səsə qoyulur və yekdilliklə qəbul edilir.

Eşidildi:

Şəki Bələdiyyəsinin sədri F.N.Cəfərov gündəlikdə duran məsələ haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, Şəki qədim dövrlərdən sənətkarlıq mərkəzi olmuşdur. Şəkidə dulusçuluq, miskərlik, ipəkçilik, toxuculuq sahələri geniş inkişaf etmişdir. Şəki ipəyinin şöhrəti nəinki respublikamızda, hətta bütün ölkədə məşhurdur. Qızlarımızın, analarımızın, gəlinlərimizin baş örtüyü olan kəlağayı bütün respublikalarda bəyənilir və geniş istifadə edilir. Nəfis ipək parçadan hazırlanan Şəki kəlağasına vurulan naxışlar hər kəsin diqqətini cəlb edir. Vurulan naxışların hər biri bizim adət ənənələrimizi əks etdirir.

Cənab F.N.Cəfərov sözünün sonunda qeyd edir ki, ipəkçilik sənətinin bariz nümunəsi olan kəlağayı istehsalı bu gün də davam edir və biz bu sənəti inkişaf etdirməliyik. Təklif edir ki, Azərbaycan mədəniyyətinin tarixi sənət növlərindən biri olan «Azərbaycan kəlağayısı sənəti və simvolikası»nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilsin.

Çıxışlar:

1. Bələdiyyə üzvü E.M.Nuriyev çıxışında qeyd etdi ki, verilən təklifi alqışlayır, onu bəyənir və müdaifə edir. O, bildirir ki, respublikamızda Şəki kəlağayısının özünəməxsus yeri var. Lakin onun daha geniş miqyasda yayılmasına nail olmaq üçün verilən təklif təqdirəlayiqdir.
2. Bələdiyyə üzvlərindən N.T.Məmmədov, A.Ə.Abdulhəmidov, R.M.Musayev və başqaları çıxış edərək təklifi müdaifə etdiklərini bildirdilər.

Təklif səsə qoyulur və yekdilliklə qəbul edilir.

Şəki Bələdiyyəsi məlumat və çıxışları dinləyərək qərara alır:

1. Şəki Bələdiyyəsi Azərbaycan mədəniyyətinin tarixi sənət növlərindən biri olan «Azərbaycan kəlağayısı sənəti və simvolikası»nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunmasını dəstəkləyir və bu təşəbbüsün həyata keçirilməsinə razılığımızı bildiririk.

Qərar səsə qoyulur və yekdilliklə qəbul edilir.

İclasın sədri: F.N.Cəfərov

İclasın katibi: S.A.Abdullayeva

Əsli ilə düzdür: S.A.Abdullayeva

**Translation**

EXTRACT

from the Protocol No. 4 of the meeting of Sheki Municipality held on 14 March 2011

Number of Municipality members: 17
Number of persons participated: 11

6 members of municipality are absent for valid reasons.

| | |
|---|---|
| Chair of the meeting: | Fikret Neymat oglu Jafarov |
| Secretary of the meeting: | Sayali Abdulla qizi Abdullayeva |

Agenda:

1. The issue of Inclusion of "Art and symbolism of Azerbaijani kelaghayi" into UNESCO Representative List of Intangible Cultural Heritage of Humanity.

The Agenda is adopted unanimously.

Report:

The Chair of Sheki Municipality Mr. F.N.Jafarov provided the detailed information on the issue of the agenda. He noted that Sheki have been the centre of handicrafts from the ancient times. Such crafts as pottery, copper crafts, silk worm breeding, weaving were developed here. The silk from Sheki is famous not only in Azerbaijan but all over the world. Kelaghayi made of silk is broadly used as a headdress by our mothers, daughters and brides all over Azerbaijan. The patterns on Sheki kelaghayi made of delicate silk tissue attract everybody.

Mr. F.N.Jafarov emphasized that the kelaghayi making which is a bright example of the silk art is continued and should be developed. In this regard it is proposed to include the ancient element of Azerbaijani culture "Art and symbolism of Azerbaijani kelaghayi" into the UNESCO Representative List of Intangible Cultural Heritage of Humanity.

**Speeches:**

1. Municipality member E.M. Nuriyev in his speech noted that he greets and supports the proposal of inclusion of kelaghayi into UNESCO List. He also said that Sheki kelaghayi plays a special role in Azerbaijan. However since it is necessary to promote it in a larger scale the adoption of proposal is advisable.
2. Municipality members N.T.Mammadov, A.A.Abdulhamidov, R.M.Musayev and others supported the proposal in their speeches.

The proposal is adopted unanimously.

After hearing the report and the speeches the Municipality of Sheki decided that:

1. Municipality of Sheki supports the proposal concerning the inclusion of the ancient element of Azerbaijani culture "Art and symbolism of Azerbaijani kelaghayi" into the UNESCO Representative List of Intangible Cultural Heritage of Humanity and gives its permission on the implementation of this initiative.

The decision is adopted unanimously.

| | |
|---|---|
| Chair of the meeting | F.N.Jafarov |
| Secretary of the meeting: | S.A.Abdullayeva |
| Authenticity of the copy confirmed by: | S.A.Abdullayeva |

Müraciət

Azərbaycan kəlağayısı sənəti və simvolizmi

Kəlağayı sənəti Azərbaycanın çoxəsrlik mədəni irsinin tərkib hissəsi olaraq xalqımızın mentalitetində saflıq, ləyaqət, qadına hörmət və sülh simvolu kimi həkk olunub. Bu sənətin qədim tarixə malik olmasını və onun yerli zəmində inkişaf edərək yüksəlməsini ölkəmizə müxtəlif dövrlərdə təşrif buyurmuş əcnəbi qonaqlar və səyyahlar öz yazılarında qeyd etmişdilər. Tarix boyu ənənəvi olaraq bir neçə coğrafi məkanda təşəkkül tapan bu sənət növü bütün Azərbaycan xalqı tərəfindən zaman boyu sevilmiş və indinin özündə də sevilməkdədir. Kəlağayı sənətinin nümunələri hətta Azərbaycanın hüdudlarını aşaraq qonşu İran, Gürcüstan, Dağıstan, Türkmənistan və digər ərazilərə yayılaraq yerli əhali tərəfindən heç bir maneə ilə rastlaşmadan qavranılmışdır. Bu isə kəlağayı sənətinin bəşəri mənəvi dəyərlər daşıyıcısı olduğunun əyani sübutudur.

Kəlağayı ipək sənəti yetərincə mürəkkəb bir proses olaraq, müəyyən bir icma halında birləşən ustaların və əsrlər boyu nəsildən-nəslə şifahi tərzdə ötürülən biliklərin məhsuludur. Bu biliklər aramsız olaraq sözügedən sənətin müəyyən sahələri üzrə ixtisaslaşmış sənətkarlar sülalələri hesabına davam etdirilir və yaşadılır. Bu sənətkarların biliyi və məharəti əsasında yaradılmış kəlağayı inciləri hal-hazırda dünyanın bir çox nüfuzlu muzeylərini bəzəməkdədir.

Eyni zamanda kəlağayı sənəti ayrı-ayrı şəxslərin, sənətkar qruplarının müasir həyatda özlərinin ənənəvi, təkrarolunmaz həyat tərzinin qorunub saxlanmasını təmin edən mühüm bir amildir. Bu sənətə bağlılıq həmin insanlar üçün qürur mənbəyi sayılır. Sözün əsl mənasında kəlağayı sənəti ilə məşğul olan şəxs və qurumlar Azərbaycan xalqının qədim mədəni irsinin və yenilməz mənəvi dəyərlərinin bir növ daşıyıcısı və ötürücüsüdür.

Bu günləri bu qədim sənət Azərbaycanın iki coğrafi məkanında Şəkidə və Basqalda yaşamaqdadır. Onun ənənəvi və davamlı şəkildə inkişafını təkcə burada yaşayan sənətkarlar yox, həm də yerli idarəetmə orqanları (bələdiyyələr), qeyri hökumət təşkilatları və mədəni irsimizə biganə qalmayan geniş ictimai kütlələr dəstəkləyirlər. Onların hamısı bu sənətin yaşaması və inkişafı üçün müxtəlif layihə və fəaliyyət tədbirləri həyata keçirirlər.

**İsmayıllı rayonu Basqal qəsəbə ictimaiyyətinin üzvləri Azərbaycan mədəniyyətinin növlərindən biri olan " Azərbaycan kəlağayısı sənəti və simvolikası" nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunmasını dəstəkləyir və bu təşəbbüsün həyata keçirilməsinə öz imzalarımızla razılığımızı bildiririk.**

**İmzalar:**

1. Əsədov Novruz
2. Nağıyev Rəşad
3. Ələsgərov Zülfi
4. Xəlilov Sədaqət
5. Qafarov Ağasəfər
6. Hüseynov Miryavər
7. Soltanov Tərlan
8. Cəfərov Ağaqulu
9. Xəlilov Ələsgər
10. Məmmədov Nizami
11. Talıbov Abbasəli
12. Şəfiyev Qadir
13. Rəcəbova Məlakə
15. Ağayeva Yeganə
16. Piriyeva Rayihə
17. Eyvazova Ramizə
18. Hacıyeva Xoşqədəm
19. Əsgərov Vaqif
20. Nağıyev Kamran
21. Bağırov Zaur
22. Xəlilov Qamət

23. Nağıyev Taleh

24. Dəmirov Misir

25. Nuriyev İkram

26. Nağıyev Rahib

27. Mövlamov Fariz

28. Tağıyev Əjdər

29. Əliyev Sabir

30. Hüseynov Teyfur

16 mart 2011-ci il

Şəki şəhər ictimaiyyətinin üzvləri Azərbaycan mədəniyyətinin tarixi sənət növlərindən biri olan «Azərbaycan kəlağayı sənəti və simvolikası»nın YUNESKO-nun Qeyri-maddi irsin Reprezentativ siyahısına daxil edilməsi üçün təklif olunmasını dəstəkləyir və bu təşəbbüsün həyata keçirilməsinə öz imzalarımızla razılığımızı bildiririk.

Siyahı əlavə olunur.

1. İbrahimxəlilov Aydın Təmraz oğlu
2. İsmayılov İsmayıl Mirzə oğlu
3. Səlimli Xatirə Zahid qızı
4. İsmayılova Dilbazi Sabir qızı
5. Məmmədov Rəhman Nazim oğlu
6. Qaffarova Nazilə Həmid qızı
7. Vahabov Seyid Hümmət oğlu
8. Abdullayeva Sevinc Ramiz qızı
9. Məmmədova Gültəkin Neykəddin qızı
10. Bayraməliyev İntiqam Seyidəli oğlu
11. Paşayeva Suqra Duman qızı
12. Mustafayeva Zümrüd Zakir qızı
13. Xəlilova Validə Müslüm qızı
14. Abbasova Firəngiz Abdusalam qızı
15. Maqsudi Bahar Şaban qızı
16. Novruzova Məhəbbət Yusif qızı
17. Xəlifəzadə Gülnarə Ramiz qızı
18. Mustafayeva Arzu Ələsgər qızı
19. Babayeva Məlahət Şükür qızı
20. Rəhimova Billur Rüstəm qızı
21. Əhmədova Samirə Seyran qızı
22. Rəhimli Reyhanə Əbülfəz qızı
23. Lətifova Nəzakət Bayram qızı
24. Rəhimova Mələk Məmməd qızı
25. Hüseynova Ülkər Askariat qızı
26. Reşidova Sevinc Nurfət qızı
27. Hüseynbəyova Gülnarə Qurban qızı
28. Rəsulova Sədaqət İnqilab qızı
29. Məmmədova Sevda Fərman qızı
30. Vələdov Orxan Mahir oğlu

Reçu CLT / CIH / ITH

Le 2 8 MARS 2011

N° 4626

Translation

Address

Art and symbolism of Azerbaijani kelaghayi

Kelaghayi art being a part of centuries-old culture of Azerbaijan became a symbol of purity, dignity, peace and respect towards women for our people. Foreign guests and travelers visited our country in various periods mentioned in their notes that this art had ancient roots and was developed in this country. This art that can also be found in other geographic locations have been always loved by Azerbaijani people. Kelaghayi art was spread over the borders of Azerbaijan to such neighboring regions as Iran, Georgia, Dagestan, Turkmenistan and accepted by the population of these countries. That proves that kelaghayi is a bearer of universal values.

Kelaghayi weaving art being rather complicated process is a product made by craftsmen communities and transmitted over the centuries from one generation to another. This knowledge is being preserved and developed by the craftsmen specializing in various fields of this art. The kelaghayis, thanks to the skills and knowledge of these craftsmen, are preserved in many museums of the world.

Kelaghayi art is a factor contributing to the preservation of the traditional way of life of craftsmen living in contemporary world. Belonging to this profession is a source of pride for those people. Organizations and persons involved in kelaghayi art can be considered bearers of the ancient Azerbaijani cultural heritage and spiritual values.

Presently this ancient art is being preserved in two locations of Azerbaijan: Sheki and Basgal. The sustainable development of this art is supported not only by the craftsmen living here but also by the local authorities (municipalities), NGOs and the large groups of population. They all implement various projects and provide activities aimed at preservation and development of this art.

We, the representatives of the Basgal settlement of Ismayilli district support the nomination of the ancient element of Azerbaijani culture "Art and symbolism of Azerbaijani kelaghayi" into the UNESCO Representative List of Intangible Cultural Heritage and give our permission to the implementation of this initiative.

30 signatures.

We, the representatives of the Sheki city support the nomination of the ancient element of Azerbaijani culture "Art and symbolism of Azerbaijani kelaghayi" into the UNESCO Representative List of Intangible Cultural Heritage and give our permission to the implementation of this initiative.

30 signatures.